**AZƏRBAYCAN RESPUBLİKASININ SƏHİYYƏ NAZİRLİYİ**

**Ə M R**

**№** 26

**Bakı şəhəri** **"** 16 **"** 04. 2018 **il**

**"Respublikada "İmmunlaşdırma həftəsi"nin keçirilməsi barədə"**

Ümumdünya Səhiyyə Təşkilatının təşəbbüsü ilə 2006-cı ildən başlayaraq Avropa regionunda "İmmunlaşdırma həftəsi" keçirilir və Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi bu tədbirlərdə iştirak edir.

2018-ci ildə də bu tədbirin yüksək səviyyədə həyata keçirilməsi məqsədi ilə "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"nin 14.5-ci bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

1. 2018-ci ilin aprel ayının 23-29 tarixlərində Respublikanın bütün şəhər və rayonlarında "İmmunlaşdırma həftəsi" keçirilsin.

2. Səhiyyə Nazirliyinin tibb idarə və müəssisələrinin rəhbərlərinə tapşırılsın:

2.1. hər hansı səbəbə görə immunlaşdırmadan kənarda qalan uşaqların "İmmunlaşdırma həftəsi" ərzində peyvəndlərə cəlb edilməsi təmin edilsin;

2.2. "İmmunlaşdırma həftəsi"nin nəticələri haqqında məlumat 18 may 2018-ci il tarixədək Respublika Gigiyena və Epidemiologiya Mərkəzinə təqdim edilsin.

3. Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin baş direktorunun vəzifəsini icra edən İ.Abdullayevə tapşırılsın:

3.1. Ümumdünya Səhiyyə Təşkilatının dəstəyi ilə "İmmunlaşdırma həftəsi" ərzində peyvəndlərlə əhatə səviyyəsinə nəzarət məqsədilə Respublikanın rayonlarında monitorinqin keçirilməsi təmin edilsin;

3.2. "İmmunlaşdırma həftəsi"nə həsr olunmuş pres-konfrans keçirilsin;

3.3. "İmmunlaşdırma həftəsi"nin yekun nəticələri haqqında məlumat 25 may 2018-ci il tarixinədək Səhiyyə Nazirliyinə təqdim edilsin.

4. Əmrin icrasına nəzarət nazir müavinlərinə həvalə edilsin.

**Nazir** **Oqtay Şirəliyev**